# Norveç Azərbaycanda COP29-un uğurla keçirilməsinə dəstək verməyə hazırdır



**Martın 18-də Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri Zaur Əhmədovun Yüksək Arktik Rəsmilər Şurasının (SAO) sədri və Norveçin Arktik səfiri Morten Hoqlund ilə onlayn formatda görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüş zamanı qarşı tərəf Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) hazırlanması və uğurla keçirilməsinə Norveçin dəstək verməyə hazır olduğunu bildirib.

İki ölkə arasında bu mötəbər beynəlxalq tədbirlə bağlı mümkün qarşılıqlı fəaliyyət imkanları barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan. - 2024.- 20 mart, № 62.- S.3.